my GROUP

# KEYFİYYƏT SİYASƏTİ

Tərtib tarixi: 20 Dekabr 2024

Sənədin nömrəsi: MYGRP-QA-POL-01

Son reviziya tarixi: 14 Mart 2025

Reviziya No: 01

Növbəti planlaşdırılan baxış tarixi: 13 Mart 2028

| | Adı, soyadı | Vəzifəsi | Tarix |
|---|---|---|---|
| **Təsdiq etdi:** | Kənan Sadiqli | İcraçı Direktor | 14.03.2025 |

**Fəaliyyətimiz:** "My Group Holding" MMC müəssisə və layihələrin idarəedilməsi fəaliyyətini həyata keçirir.

**Bizim öhdəliklərimiz:** Holdinqə daxil olan bütün müəssisələr, öz fəaliyyətlərində keyfiyyət üzrə yüksək standartlı xidmətlərə nail olmaq üçün bütün tətbiq olunan qanunlara, standartlara, müştərilərin ehtiyaclarına, gözləntilərinə və müvafiq tələblərinə riayət etməyə borcludur.

Holdinq tərkibində olan müəssisələrin və müvafiq layihələrin idarəedilməsini, aidiyyatı olan qanunvericilik tələblərinə, norma və qaydalara uyğun olaraq həyata keçirilməsi öhdəliyini üzərimizə götürürük.

Proseslərimiz ISO 9001:2015 Beynəlxalq Standartın tələblərinə cavab verən sənədləşdirilmiş Keyfiyyəti İdarəetmə Sistemində strukturlaşdırılmışdır.

Aşağıda göstərilən prinsip və üsulları tətbiq etmək üçün öhdəlik götürürük:

- **İşlərə nəzarət:** Xidmətlərimizi keyfiyyət tələblərinə uyğun olaraq yerinə yetirilməsini təmin etmək üçün müvafiq daxili yoxlamaları, və tələb olunan hallarda zəmanət üzrə xidmətləri təmin edəcəyik.
- **Müştəriyə diqqət**: Biz müştərilərimizdən asılıyıq və onları tələblərinə uyğun yüksək keyfiyyətli xidmətlərlə təmin etməyə borcluyuq. Məqsədimiz müştərilərimizin gözləntilərini tam qarşılamaq və ya üstələməkdir.
- **Məqsəd və hədəflər:** Sürət, dəqiqlik, davamlılıq, güvən, etibarlılıq və müştərilərlə əməkdaşlıq prinsiplərinin tam tətbiqi ilə müştəri şikayətlərinin miqdarını sıfır (0) sayda saxlamaq və bu səbəbdən müştəri məmnuniyyətini artırmaq üçün bütün lazımi işləri görmək,
- **Resursların təmin edilməsi:** Planlaşdırılan məqsədlərə və hədəflərə nail olmaq üçün şirkətin rəhbərliyi tərəfindən intellektual, maliyyə, infrastruktur, informasiya və digər zəruri resurslar təmin ediləcəkdir.
- **Risklərin idarə olunması:** Şirkətin fəaliyyətinə aid risklər, təhlükə və zəifliklərin aşkar edilməsi və qiymətləndirilməsini təmin etmək üçün risk əsaslı idarəetmə təmin edəcək və yüksək keyfiyyət standartları ilə təhlükəsiz və fasiləsiz əməliyyatlar həyata keçirmək üçün bütün effektiv nəzarət tədbirləri tətbiq ediləcəkdir.
- **Maraqlı tərəflər:** Təşkilatımız və müştəriləri, təchizatçı, tərəfdaş və digər maraqlı tərəfləri bir-birinə bağlıdır. Biz daha yüksək etibarlılığa, daha yaxşı xidmətlərə və səmərəliliyin artırılmasına gətirib çıxaran keyfiyyətin yaxşılaşdırılması üçün qarşılıqlı əlaqələri inkişaf etdirməyə çalışacağıq.
- **Xarici və daxili məsələlər:** Qaydalardakı dəyişikliklər, rəqabətin artması, yeni bazar tələbləri, maraqlı tərəflərin yeni gözləntiləri, işçi heyətə mənəvi təsir göstərə biləcək dəyişikliklər kimi təşkilatın məqsədinə və strateji istiqamətinə təsir göstərə biləcək hər hansı məsələlər hər zaman nəzər alınacaq.
- **Davamlı inkişaf:** Biz idarəetmə heyətinin və işçilərin öhdəçiliyi və iştirakı, səlist idarəetmə və qabaqcıl təcrübənin tətbiqi ilə inteqrasiya olunmuş idarəetmə sisteminin davamlı inkişafını təmin edəcəyik.
- **Məsuliyyət:** İşçilərimiz müqavilə şərtlərinə, müştərilərin və digər maraqlı tərəflərin gözləntilərinə uyğunsuzluqların qarşısını almaq üçün məqbul olan hər tədbiri icra etməlidirlər. Bundan əlavə, işçilər xidmətlərimizin keyfiyyətinə mənfi təsir göstərə biləcək hər hansı bir uyğunsuzluq haqqında rəhbərliyə məlumat verməlidirlər.
- **Kommunikasiya:** Keyfiyyət siyasətinin prinsipləri barədə məlumat maraqlı tərəflərə çatdırılacaq və bütün işçilər üçün hər zaman əlçatan olacaqdır.

**İcraçı Direktor**

**Kənan Sadiqli**

**14.03.2025**